**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# S Ə R Ə N C A M

**“Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın icrasından irəli gələn bəzi məsələlərin həll edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il 14 yanvar tarixli 2s nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq:

1. “Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın icrasından irəli gələn bəzi məsələlərin həll edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il 14 yanvar tarixli 2s nömrəli Sərəncamında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissənin “İşçi Qrupun üzvləri” bölməsinə “Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı” sözlərindən sonra “Ordubad Rayon İcra Hakimiyyətinin başçısı” sözləri və “Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri” sözlərindən sonra “Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin sədri” sözləri əlavə edilsin;

1.2. 2-ci hissənin “Altqrupun üzvləri” bölməsinə “Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini – Sosial iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri” sözlərindən sonra “Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini – Sosial iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri” sözləri və “Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının Ərazi orqanları ilə iş və kadrlar şöbəsinin müdiri” sözlərindən sonra “Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi Aparatının Dini maarifləndirmə işinin təşkili və qeydiyyat sektorunun müdiri” sözləri əlavə edilsin;

1.3. həmin Sərəncama əlavə - “Təfsilatlı Tədbirlər Planında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin əsas icraçı olduğu tədbirlər üzrə icra funksiyasının yerinə yetirilməsi həvalə edilən dövlət orqanları (qurumları)” cədvəlinin 30-cu, 31-ci, 34-cü və 35-ci bəndləri aşağıdakı redaksiyada verilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| “30. | 8.5.2.1.4. | Ordubad Tematik Parkının yaradılmasının layihələndirilməsi ilə bağlı işlərin davam etdirilməsi | ORİH | NMR FHN, NMR DŞAK, NMR TD | 2026 |
| 31. | 8.5.2.1.6. | “Əshabi-Kəhf Ziyarətgahı” Dini Mədəni Abidə Kompleksinin ərazisində ziyarətçilər üçün qonaq evinin layihələndirilməsi | NMR DQİDA | NMR FHN, NMR TD, CRİH | 2025 |
| 34. | 8.5.2.2.7. | “Əshabi-Kəhf Ziyarətgahı” Dini Mədəni Abidə Kompleksinin ərazisində ziyarətçilər üçün qonaq evinin inşa edilməsi | NMR DQİDA | NMR FHN, NMR TD, CRİH | 2026-2027 |
| 35. | 8.5.2.2.8. | Ordubad Tematik Parkının inşa edilməsi | ORİH | NMR DŞAK, NMR TD | 2027” |

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “26” fevral 2025-ci il

№ 21s